Oktyabr 2017

# PwC Azerbaijan Times

## 26 saylı Buraxılış

### Buraxılışın əsas xəbərləri:

- **"İpəkçiliyin inkişafına dövlət dəstəyinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**
- **"Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı**
- **Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi**
- **Müxtəlif məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin Fərmanları**
- **"Yerli icra hakimiyyətləri haqqında" Əsasnaməyə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**
- **Vergi mübahisələri üzrə məhkəmə praktikası**




Buraxılışda əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa aşağıdakı şəxslərlə əlaqə saxlaya bilərsiniz:

Arif Quliyev, Vergi üzrə məsləhət xidmətləri, İdarəedici Direktor

Arif.guliyev@az.pwc.com

Samir Hacıyev, Direktor, Hüquqi Praktikanın Rəhbəri

Samir.hadjiyev@az.pwc.com

Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova
aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az



© 2017 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.


### *"İpəkçiliyin inkişafına dövlət dəstəyinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Sərəncam ölkədə ipəkçiliyin inkişafı məqsədilə qəbul edilib. Sərəncamla Kənd Təsərrüfatı Nazirliyinə tut tinglərinin və barama toxumlarının tədarükü ilə bağlı dövlət büdcəsindən vəsait ayrılıb. Qeyd edək ki, sözügedən məhsullar istehlakçılara əvəzsiz qaydada veriləcək.

### *"Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılmışdır.

### *Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi*

Fond mənəvi dəyərlərin qorunmasına, dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyi göstərən qeyri-kommersiya hüquqi şəxsidir. Fondun fəaliyyət istiqaməti dini etiqad sahəsində maarifləndirmə işinin aparılması, din-dövlət münasibətləri sahəsində proqramların hazırlanması və həyata keçirilməsi və dini qurumların vətəndaşların dini etiqad azadlığının qorunması sahəsindəki fəaliyyətinə dövlət dəstəyini təmin etməkdir.

### *Müxtəlif məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin Fərmanları*

Azərbaycan Respublikasının Prezidenti "Nazirlər Kabinetinin Aparatı haqqında" Əsasnamənin, Nazirlər Kabinetinin iş qaydasının, Azərbaycan Ali Hərbi Məktəbin Nizamnaməsinin təsdiq olunması barədə Fərmanlar qəbul etmişdir.

### *"Yerli icra hakimiyyətləri haqqında" Əsasnaməyə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Fərmanla Əsasnamə "Yol hərəkəti haqqında" AR Qanununa uyğunlaşdırılmışdır. Belə ki, yeri icra hakimiyyəti orqanları parklanma yerlərinin təşkil edildiyi avtomobil

yollarının kənarlarında yerləşən evlərdə və ya binalarda yaşayan minik avtomobillərinin istifadəçiləri üçün, onların müraciətinə əsasən, pulsuz parklanma yerləri ayırır və onlara fərdi parklanma talonu verir.

## *Vergi mübahisələri üzrə məhkəmə praktikası*

### *1. Fərdi sahibkar vergi orqanına qarşı*

*İddianın məbləği:* təxminən 431 min manat

*Məhkəmə instansiyası:* Ali Məhkəmə

*Qərarın tarixi:* İyun 2016

*Predmet:* Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün nəzərdə tutulan vergi*

*İş:* Vergi ödəyicisi mülkiyyətində olan daşınmaz əmlakı söküb onu yenidən tikmək barədə yerli icra hakimiyyəti orqanından icazə alır. Vergi orqanı isə vergi ödəyicisinə mənzil tikintisi fəaliyyəti üçün nəzərdə tutulmuş vergi təyin edir.

*Məhkəmə qərarı:* Məhkəmə bildirmişdir ki, mülkiyyət hüququ ilə şəxsə məxsus daşınmaz əmlakın, sökülərək yerində onun yenidən tikilməsi şəxsin mənzil tikintisi fəaliyyəti ilə məşğul olması anlamına gəlmir. Həmçinin, vergi qanunvericiliyə əsasən, başqa tikililər ilə təmasda olmayan ayrıca tikilən fərdi və ya şəxsi yaşayış evləri, yaxud tikililəri vergitutma obyekti deyildir.

* - mübahisənin yarandığı dövrdə qüvvədə olan vergi qanunvericiliyinə əsasən